Kim Allahın kitabından bir hərf oxuyarsa, ona bir savab yazılar. Savab isə on mislindədir

Abdullah bin Məsud (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini rəvayət edir: "Kim Allahın kitabından bir hərf oxuyarsa, ona bir savab yazılar. Savab isə on mislindədir. Deməzdim ki, "Əlif ləm mim" bir hərfdir, lakin "əlif" bir hərf, "ləm" bir hərf və "mim" də bir hərfdir".

[Həsən] [Ət-Tirmizi rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, hər bir müsəlman Allahın kitabından bir hərf oxusa bir savab qazanar, bu savab da on qat mislində artar. Sonra "Deməzdim ki, əlif, ləm, mim bir hərfdir, lakin əlif bir hərf, ləm bir hərf, mim də bir hərfdir" deyərək bəyan edir ki, üç savab burada otuz savaba bərabər olur.

http://www.sunnah.global/hadeeth/az/show/6275